bakertilly

now, for tomorrow

# AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə

**Now, for tomorrow**

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
**www.bakertilly.az**

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Rəhbərliyi və Himayəçilik Şurasına:

***Rəy***

Biz Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra "Fond") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Fondun 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə dair etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Fonddan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri, bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik məsələlərdir. Bu məsələlər ümumilikdə maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və biz bu məsələlər barəsində ayrıca rəy vermirik.

*Banklarda yerləşdirilmiş depozitlər, ipoteka kreditləri, maliyyə icarəsi üzrə alınacaq vəsaitlər və sahibkarlara verilmiş kreditlər üzrə zəmanətlər ilə bağlı ehtimal olunan kredit zərərləri (EOKZ) ehtiyatları və satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu üzrə xalis realizə edilə bilən dəyər qiymətləndirilməsi.*

Maliyyə hesabatlarında 3, 7, 14, 15, 16, 19 və 30 saylı Qeydlərə baxın.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

*Əsas audit məsələləri*

Maliyyə aktivlərinin qalıqların əhəmiyyətli olması və dəyərsizləşmənin vaxtının və məbləğinin hesablanmasının mürəkkəbliyi ilə əlaqədar olaraq, banklarda yerləşdirilmiş depozitlər, ipoteka kreditləri, maliyyə icarəsi üzrə alınacaq vəsaitlər, sahibkarlara verilmiş kreditlər üzrə zəmanətlərin dəyərsizləşməsi və satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondunun xalis realizə edilə bilən dəyər qiymətləndirilməsi əsas audit məsələsi hesab edilir. Risk, dəyərsizləşmə məbləğinin yanlış qiymətləndirilməsi təhlükəsi ilə bağlıdır. Dəyərsizləşmə nəticəsində yarana biləcək itkilər üzrə ehtiyatlar, dəyərsizləşmənin obyektiv sübutunun mövcudluğunun müəyyən edilməsi və borcalanların maliyyə vəziyyəti və gələcək pul axınları barədə Fondun ehtimalları əsasında yaradılmalıdır.

***Bu məsələ ilə bağlı apardığımız audit prosedurları***

Biz öz audit prosedurlarımız çərçivəsində prosesləri və maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyatların yaradılması üçün Fondun nəzarət sistemlərini dəyərləndirmişik. Biz həmçinin, Fond tərəfindən maliyyələşdirilmiş ipoteka kreditləri və digər maliyyə aktivləri üzrə əvvəlki dövrlərdə pul vəsaitlərinin dinamikası və digər amilləri nəzərə alaraq Fondun aktivlər üzrə yaradılmış ehtiyatlarını qiymətləndirmişik. Eyni zamanda, banklarda yerləşdirilmiş depozitlər üzrə yaradılmış ehtiyatları qiymətləndirmək məqsədi ilə mövcud ictimai məlumatlara əsaslanaraq bankların maliyyə vəziyyətini fərdi şəkildə nəzərdən keçirmişik. Əlavə olaraq, maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyatların yaradılması üçün Fondun metodologiyasının adekvatlığını təhlil etmişik.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və Himayəçilik Şurasının Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Fondu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Fondun maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Fondun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Fondun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Fondun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərin nəzərinə çatdırılmış məsələlərdən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli olanlarını və bu səbəbdən, əsas audit məsələləri hesab olunanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və qaydalarla yol verilmədiyi halda və ya çox nadir hallarda məsələ haqqında hesabatda məlumat verməninin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə, biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, bu məsələləri auditor hesabatımızda təqdim edirik.

Baker Tilly Azerbaijan

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

## AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 41,289,287 | 22,743,539 |
| Banklarda yerləşdirilmiş depozitlər | 14 | 31,650,056 | 44,779,069 |
| Amortizasiya olunmuş dəyərdə borc alətləri | 15 | 84,571,480 | 119,743,784 |
| İpoteka kreditləri | 16 | 1,708,115,183 | 1,409,845,702 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 17 | 18,226,084 | 20,256,973 |
| Aktivlərdən istifadə hüququ | 18 | 100,483 | 229,538 |
| Maliyyə icarəsi üzrə alınacaq vəsaitlər | 19 | 303,061,813 | 140,522,581 |
| Satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu | 20 | 212,219,005 | 253,350,713 |
| Digər aktivlər | 21 | 747,525 | 725,373 |
| **CƏMİ AKTİVLƏR** | | **2,399,980,916** | **2,012,197,272** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Buraxılmış qiymətli kağızlar | 22 | 1,368,819,554 | 1,080,760,388 |
| Faiz subsidiyaları üzrə nəzərdə tutulmuş vəsait | 23 | 9,680,514 | 14,638,789 |
| Təxirə salınmış gəlirlər | 17 | 10,647,686 | 11,089,334 |
| Gələcək dövrün gəlirləri | 24 | 1,173,705 | 929,035 |
| İcarə öhdəlikləri | 18 | 110,198 | 238,943 |
| Digər öhdəliklər | 25 | 3,633,531 | 3,876,749 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1,394,065,188** | **1,111,533,238** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 26 | 893,000,000 | 798,000,000 |
| Kapital ehtiyatları | 27 | 102,664,034 | 93,062,328 |
| Bölüşdürülməmiş mənfəət | | 10,251,694 | 9,601,706 |
| **CƏMİ KAPİTAL** | | **1,005,915,728** | **900,664,034** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **2,399,980,916** | **2,012,197,272** |

**Rəhbərlik tərəfindən:**

**Fəxri Kazımov**
**İdarə Heyətinin sədri**

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Fariz Axundov**
**Maliyyə departamentinin direktoru**

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-68-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 6 | 65,991,851 | 56,251,866 |
| Faiz xərcləri | 6 | (35,536,670) | (28,550,267) |
| **Xalis faiz gəlirləri** | | **30,455,181** | **27,701,599** |
| Ehtimal olunan kredit zərəri | 7 | (1,190,009) | (5,479,395) |
| Haqq və komissiya gəlirləri | 8 | 1,483,912 | 1,450,699 |
| Haqq və komissiya xərcləri | 9 | (1,299,980) | (1,047,885) |
| Digər gəlirlər | 10 | 1,330,975 | 1,058,385 |
| **Əməliyyat gəlirləri** | | **30,780,079** | **23,683,403** |
| İnsan resursları üzrə xərclər | 11 | (5,534,453) | (5,178,010) |
| İnzibati və digər xərclər | 12 | (4,764,165) | (4,459,052) |
| **Xalis mənfəət** | | **20,481,461** | **14,046,341** |
| **İl üzrə mənfəət və cəmi məcmu gəlir** | | **20,481,461** | **14,046,341** |

**Rəhbərlik tərəfindən:**

**Fəxri Kazımov**
**İdarə Heyətinin sədri**

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Fariz Axundov**
**Maliyyə departamentinin direktoru**

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-68-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Dövlət ayırmaları | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixinə qalıq** | **637,000,000** | **90,000,000** | **-** | **85,834,261** | **7,228,067** | **820,062,328** |
| Dövlət büdcəsindən ayırmalar (26 saylı Qeyd) | - | - | 71,000,000 | - | - | 71,000,000 |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | - | - | - | - | 14,046,341 | 14,046,341 |
| Təsisçisi eyni olan qurum ilə hesablaşmalar* | - | - | - | - | (4,444,635) | (4,444,635) |
| Kapital ehtiyatlarına transfer | - | - | - | 7,228,067 | (7,228,067) | - |
| Nizamnamə kapitalının artırılması | 161,000,000 | (90,000,000) | (71,000,000) | - | - | - |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **798,000,000** | **-** | **-** | **93,062,328** | **9,601,706** | **900,664,034** |
| Dövlət büdcəsindən ayırmalar (26 saylı Qeyd) | - | - | 95,000,000 | - | - | 95,000,000 |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | - | - | - | - | 20,481,461 | 20,481,461 |
| Təsisçisi eyni olan qurum ilə hesablaşmalar* | - | - | - | - | (10,229,767) | (10,229,767) |
| Kapital ehtiyatlarına transfer | - | - | - | 9,601,706 | (9,601,706) | - |
| Nizamnamə kapitalının artırılması | 95,000,000 | - | (95,000,000) | - | - | - |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **893,000,000** | **-** | **-** | **102,664,034** | **10,251,694** | **1,005,915,728** |

* Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 avqust tarixli 2871 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 31 dekabr 2022-ci il tarixində bitən il üzrə Fondun balansında olan 10,229,767 AZN (2021-ci il: 4,444,635 AZN) dəyərində mənzillərin Fondun mənfəəti hesabına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilməsi təmin edilmişdir.

**Rəhbərlik tərəfindən:**

**Fəxri Kazımov**
**İdarə Heyətinin sədri**

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Fariz Axundov**
**Maliyyə departamentinin direktoru**

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-68-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Alınmış faizlər | | 66,967,462 | 55,646,319 |
| Ödənilmiş faizlər | | (35,784,909) | (25,865,060) |
| Alınmış haqq və komissiyalar | | 1,742,744 | 1,867,218 |
| Ödənilmiş haqq və komissiyalar | | (1,288,010) | (969,299) |
| Digər gəlirlər | | 866,566 | 618,924 |
| İnsan resursları üzrə xərclərin ödənişi | | (5,561,607) | (5,112,478) |
| İnzibati və digər xərclər üzrə ödənişlər | | (2,346,068) | (2,100,232) |
| **Əməliyyat aktivlərində (artım)/azalma** | | | |
| Banklarda yerləşdirilmiş depozitlər | | 13,000,000 | (6,000,000) |
| İpoteka kreditləri | | (298,522,711) | (267,530,475) |
| Maliyyə icarəsi üzrə alınmış vəsaitlər maddəsi üzrə dəyişikliklər | | (162,878,973) | (92,891,245) |
| Satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu maddəsi üzrə dəyişikliklər | | 30,901,941 | (14,159,903) |
| Digər aktivlər | | 63,430 | 52,579 |
| **Əməliyyat öhdəliklərində (azalma)/artım** | | | |
| Faiz subsidiyaları üzrə hesablaşmalar | | (5,155,559) | 3,642,695 |
| Digər öhdəliklər | | (565,801) | (1,093,316) |
| **Əməliyyat fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **(398,561,495)** | **(353,894,273)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Amortizasiya olunmuş dəyərdə borc alətlərinin satın alınması | | (19,999,989) | (87,815,468) |
| Amortizasiya olunmuş dəyərdə borc alətlərinin geri alınması | | 54,099,411 | 77,580,400 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (170,839) | (193,132) |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan/ (istifadə edilən) xalis pul vəsaitləri** | | **33,928,583** | **(10,428,200)** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Dövlət büdcəsindən ayırmalar | 26 | 95,000,000 | 71,000,000 |
| Borc qiymətli kağızlarının buraxılmasından daxilolma | 22 | 509,939,665 | 280,043,332 |
| Ödənilmiş borc qiymətli kağızları | 22 | (114,667,250) | (77,681,830) |
| Borc qiymətli kağızlarının vaxtından əvvəl geri alınması | 22 | (106,960,000) | (62,664,679) |
| Ödənilmiş icarə öhdəlikləri | 18 | (133,755) | (133,800) |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **383,178,660** | **210,563,023** |

# AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM/(AZALMA) | | 18,545,748 | (153,759,450) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ: *ilin əvvəlinə* | 13 | 22,743,539 | 176,502,989 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ: *ilin sonuna* | 13 | 41,289,287 | 22,743,539 |

Sahibkarların müvəkkil banklardan manat ilə aldıqları kreditlər üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın ödənilməsi məqsədilə dövlət büdcəsindən 31 dekabr 2022-ci il tarixində tamamlanan il ərzində Fonda 5,000,000 AZN (2021-ci il: 16,500,000 AZN) məbləğində vəsait daxil olmuşdur. Fond tərəfindən dövr ərzində 10,155,559 AZN (2021-ci il: 12,857,306 AZN) məbləğində faiz subsidiyası ödənilmişdir.

31 dekabr 2022-ci il tarixində maliyyə icarəsi üzrə Fonda müştərilərdən 5,627,272 AZN (2021-ci il: 5,703,459 AZN) məbləğində vəsait daxil olmuşdur və satmaq öhdəliyi ilə kirayəyə verilməsi üçün yaşayış sahələrinin alınması məqsədi ilə təchizatçılara 149,830,710 AZN (2021-ci il: 112,754,607 AZN) məbləğində vəsait köçürülmüşdür.

**Rəhbərlik tərəfindən:**

**Fəxri Kazımov**
**İdarə Heyətinin sədri**

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Fariz Axundov**
**Maliyyə departamentinin direktoru**

12 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-68-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.